# Pensilan Interior

## Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Penguin Pensilan Interior akrilik kopolimer və silikon əsaslı səthin nəfəs almasını təmin edən yüksək keyfiyyətli emulsiyadır. Yüksək örtücülüyə malikdir, səthə asan yayılır və nahamar olmayan mat bir görünüm yaradır. Silinə və yuyula biləndir. Ətraf mühitə zərərsiz və qoxusuzdur.

## İstifadə olunacaq səthlər

Penguin Pensilan İnterior hər növ divar, tavan, məcun, suvaq, beton, alçıpan və betopan kimi iç səthlərdə istifadə oluna bilər.

## Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox |
|---|---|---|
| **Çəkilən qat qalınlığı, quru (µm)** | 25 | 35 |
| **Çəkilən qat qalınlığı, yaş (µm)** | 70 | 95 |
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 10.6 | 14.8 |

## Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Su əsaslı rəng pastaları ilə rənglənə bilər |
| **Kütləcə qatı maddə miqdarı (kütlə %)** | 68±2 |
| **Sıxlığı (gr/$sm^3$)** | 1.7±2 |
| **Özlülüyü** | 120±5 |
| **Parlaqlıq** | Mat |

## Boya sərfiyatı

Səth düzgünlüğü və tətbiq üsulu ilə əlaqəli olaraq tək qat 1 kq 10-13$m^2$ sahə boyana bilər. Sərfiyyata boyanacaq səthin nahamarlığı və məsaməliliyi, eləcə də rənglənmə üsulu və şərtləri təsir edir.

## Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Düzgün bir səth əldə etmək üçün səthə üzlük suvaq vurulmalı, daha sonra lazım olarsa səth sumbata olunmalı və Penguin Binder ilə səth tozdan təmizlənməli və Penguin Soft Coat Primer ilə astarlanmalıdır. Astar tətbiqindən 4-5 saat sonra səth boyanmağa hazırdır. Səth tempraturu +5-+30$^0$C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir. Məhsul ən çox 10% su ilə durulaşdırıla bilər. İki qat şəkildə fırça və ya rulo ilə tətbiq edilir. Qatlar arasında 4-6 saat gözlənilməlidir (Otaq tempraturundan asılı olaraq).

## İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança və ya konvensiyalı tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Pensilan Interior

## Texniki Məlumat Səhifəsi

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **10$^{o}$C** | **23$^{o}$C** | **40$^{o}$C** |
|---|---|---|---|
| **Üst quruma** | 6 saat | 3 saat | 1 saat |
| **Tam (sərt) quruma** | 8 saat | 4 saat | 2 saat |
| **İkinci qatın vurulması, ən az** | 6 saat | 3 saat | 1 saat |

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Birbaşa günəş işığı düşməyən  5-35°C-lik mühitdə, açılmamış orijinal qablarında 3 il saxlana bilər

### Qablaşdırılma şəkli

2.5 lt, 7.5 lt və 15 lt-lik plastik qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

# Pensilan Interior

## Texniki Məlumat Səhifəsi

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az